AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MUZDLU İŞLƏ ƏLAQƏDAR TUTULAN GƏLİR VERGİSİ, MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA, İŞSİZLİKDƏN SIĞORTA VƏ İCBARİ TİBBİ SIĞORTA HAQQI

## İşsizlikdən sığorta haqqı

BAKI – 2026

## İşsizlikdən sığorta haqqı

- **Sığortaedən** tərəfindən ödənilən sığorta haqqı üzrə – hesablanmış əməyin ödənişi fondunun **0,5 faizi**;
- **Sığortaolunan** tərəfindən ödənilən sığorta haqqı üzrə – işçinin əməkhaqqının **0,5 faizi** həcmində işsizlikdən sığorta haqqı tutulur.

**Misal:** Muzdla işləyən işçinin əsas iş yeri üzrə aylıq əmək haqqı **600 manat** olmuşdur. Bu halda işçinin (sığortaolunanın) aylıq əmək haqqından və işəgötürənin (sığortaedənin) vəsaiti hesabına aşağıdakı qaydada işsizlikdən sığorta haqqı hesablanaraq tutulur və sığortaedən tərəfindən ödənilir:

Cəmi hesablanmalı işsizlikdən sığorta haqqı - 6 manat (3+3):

1. İşçinin gəlirindən - 3 manat (600*0,5%).
2. İşəgötürənin vəsaiti hesabına - 3 manat (600*0,5%).

## İşsizlikdən sığorta haqqının hesablanma və ödənilmə müddəti:

Hər ay üçün əmək haqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda hesablanmalı, sonrakı ayın **15-dən gec olmayaraq**, tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fonda ödənilməlidir.

## Bəyannamənin təqdim edilmə müddəti:

Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın **20-dən gec olmayaraq** (sığortaedən Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, ləğv edildikdə, yaxud fəaliyyətinə xitam verildikdə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən **30 gün** müddətində, lakin hesabatın təqdim edilməsi müəyyən edilmiş müddətdən gec olmayaraq) "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)" sığortaedənin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

## Azadolmalar

"İşsizlikdən sığorta haqqında" Qanun siyasi vəzifə tutan şəxslərə şamil edilmir.

**Unutmayın ki...**

Muzdlu işə cəlb edilən şəxs ilə əmək müqaviləsi bağlanmalı və onun hüquqi qüvvəyə minməsi üçün müvafiq məlumat www.e-gov.az internet səhifəsi üzərindən "Asan İmza" (http://asanimza.az), SİMA token (https://token.sima.az/) və ya Mobil tətbiq əsaslı SİMA vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə daxil edilməli və həm işəgötürən, həm də işçi tərəfindən təsdiq edilməlidir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **"Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş"** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**